# İmişli: inkişaf və yüksəliş davam edir

**İmişli rayon Heydər Əliyev Mərkəzində 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi. Hesabat yığıncağında rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri, kənd icra nümayəndələri, bələdiyyə sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər.**



Tədbiri giriş sözü ilə açan **rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev** ilk öncə tədbir iştirakçılarını 11 aprel seçkilərinin uğurla keçməsi münasibətilə təbrik etdi. Sonra 2018-ci ilin birinci rübündə İmişli rayonun sosial-iqtisadi inkişafında yaxşı nəticələr əldə olunduğunu qeyd etdi. Rayon rəhbəri bildirdi ki, 2018-ci ilin birinci rübündə İmişli rayonunun sosial-iqtisadi inkişafında da yaxşı nəticələr əldə olunmuşdur. Belə ki, iqtisadiyyatın əsas sahələri üzrə 64.207.500 manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdir. Rayon iqtisadiyyatında əsas yeri sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı tutur. Rayonumuz əsasən aqrar rayonu olmasına baxmayaraq bu gün sənaye məhsullarının çəkisi ümumi məhsul buraxılışında üstünlük təşkil edir. 2018-ci ilin birinci rübündə ilkin məlumatlara əsasən 19.357 min manatlıq məhsul istehsal edilmişdir. İstehsal olunan sənaye məhsullarının 94,9 faizi qeyri-dövlət sektorunun payına düşür.

Qeyd olundu ki, İmişli rayonunun iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi yer tutur. Ölkədə aparılan aqrar islahatların uğurla həyata keçirilməsi nəticəsində rayonumuzda kənd təsərrüfatı inkişaf etmişdir. Son illərdə olduğu kimi, pambıq, taxıl, çuğundur əsas bitkiçilik sahəsi kimi qalmaqdadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə pambıqçılıq rayonlarında pambıqçılığın inkişafı ilə bağlı müvafiq tapşırıq vermişdir. Məlumat üçün bildirirəm ki, bu il İmişli rayonunda 15.145 ha torpaq sahəsində pambıq əkilməsi nəzərdə tutulmuşdur. Hazırda pambıq əkini işləri sürətlə aparılır. 2018-ci ilin birinci rübü ərzində heyvandarlıq və quşçuluq sahələrinin inkişafı təmin edilmiş, rayon üzrə mal-qaranın sayı 94261 başa, qoyunların sayı 254379 başa, quşların sayı isə 1154498 başa çatmışdır. Ət istehsalı (diri çəkidə) 2.785 ton, süd istehsalı 12.471 ton, yumurta istehsalı isə 13051 min ədəd olmuşdur.

Rayonda aparılan abadlıq və quruculuq işlərindən danışan rayon rəhbəri bildirdi ki, İmişli şəhərinin P.Həsənov, Koroğlu, Q.Qarayev, L.Vəliyev küçələrinə 25130 kv.m sahəyə asfalt örtüyü qoyulmasına başlanılmışdır. Heydər Əliyev prospektində səkilərə yeni səki daşları və tamet plitə qoyularaq abadlıq işləri davam etdirilməklə 14 km-lik İmişli-Yalavac-Axıcanlı-Rəsullu-Şahverdili-Bəhrəmtəpə-Qaragüvəndikli yerli əhəmiyyətli avtomobil yolunda təmir işlərinin görülməsi nəzərdə tutulmuşdur. Hazırda “ASAN Həyat” kompleksinin və “Bayraq Muzeyinin” tikintisi işləri davam etdirilir. Bundan əlavə “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağrış üzrə Dövlət Xidmətinin İmişli rayon şöbəsinin tikintisi nəzərdə tutulmuşdur.

Əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təminatından danışan rayon rəhbəri bildirdi ki, 2018-ci ilin 3 ayı ərzində istehlakçıların fasiləsiz və etibarlı elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədi ilə 10 və 0,4 kv-luq xətlərdə yenidənqurma işləri aparılmış, mövcud istismar müddətini başa vurmuş dayaq və naqillər yenisi ilə əvəz edilmiş, yeni güc mərkəzləri yaradılmışdır. Bu müddətdə 50 ədəd müxtəlif güclü transformator cari təmir, 45 ədəd transformator yarımstansiyası isə əsaslı təmir edilərək əhalinin istifadəsinə verilmişdir. Rayonun 37 yaşayış məntəqəsinin tam qazlaşdırılması təmin edilmişdir. Kəndlərin su təchizatını yaxşılaşdırmaq, əhalini ekoloji cəhətdən təmiz içməli su ilə təmin etmək məqsədilə hazırda rayonun 43 kəndində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. Bununla yanaşı əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli 2754 saylı Sərəncamı ilə rayonun Şahverdili, Göbəktala, Məhəmmədli və Rəsullu kəndlərinə yeni su xətlərinin çəkilməsi başa çatmışdır. İmişli şəhərinin bütün küçə və məhəlləri içməli su ilə təmin olunmuşdur. Son 10 ildə rayonun ümumtəhsil məktəblərinin maddi-texniki bazası yüksək səviyyədə yaxşılaşmış, 40-a yaxın məktəbin binası yenidən inşa edilmiş, yaxud əsaslı təmir olunmuşdur.

2018-ci ilin birinci rübü ərzində sosial-iqtisadi inkişafın yekunlarının təhlili göstərir ki, rayonda iqtisadiyyatın bir çox sahələrinin inkişafı təmin edilmiş, İmişli şəhərində abadlıq, quruculuq işləri həyata keçirilmiş, qarşıya qoyulan vəzifələrin icrası istiqamətində yaxşı nəticələr əldə olunmuşdur. Bundan sonra da ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələrin öhdəsindən layaqətlə gəlməyə çalışacaq, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün qüvvəmizi sərf edəcəyik.

Sonra məruzə ətrafında rayon mərkəzi xəstəxanasının baş həkimi Cəsur Paşayev, suvarma sistemləri idarəsinin rəisi Nizami Məmmədov, İmişli Elektrik Şəbəkəsinin baş mühəndisi Tofiq Ocaqov, kənd təsərrüfatı İdarəsinin rəisi Səlim Məhərrəmov çıxış edərək görülən işlərlə bağlı məlumat verdilər.

**Ərəstun ABDULOV,**
**“Respublika”.**